**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**NİZAMİİ adına ƏDƏBİYYAT İNSTİTUTU**

*Əlyazması hüququnda*

**ESMİRA HƏSƏN qızı RƏHİMOVA**

# AZƏRBAYCAN NƏSRİ ƏDƏBİ-NƏZƏRİ FİKİRDƏ (1990-2010-CU ILLƏR)

**5716.01 – Azərbaycan ədəbiyyatı**

**Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**BAKI-2016**

Dissertasiya Azərbaycan Milli Elmlər Akademiyasının Nizami adına Ədəbiyyat İnstitutunun "Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı" şöbəsində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **Bədirxan Balaca oğlu Əhmədov**
filologiya üzrə elmlər doktoru, professor

**Rəsmi opponentlər:** **Şirindil Həsən oğlu Alışanov**
filologiya üzrə elmlər doktoru, professor

**Rüstəm Kamal oğlu Rəsulov**
filologiya üzrə elmlər doktoru

**Aparıcı müəssisə:** **ADPU Azəbaycan və dünya ədəbiyyatı kafedrası**

Müdafiə " ___ "__________ 2016 -ci il saat ____ -da Azərbaycan Milli Elmlər Akademiyası Nizami adına Ədəbiyyat İnstitutunun nəzdində fəaliyyət göstərən D.01.131 - Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** AZ 1143, Bakı şəhəri, H.Cavid prospekti 115, AMEA Nizami adına Ədəbiyyat İnstitutunun Elektron Akt zalı (IV mərtəbə).

Dissertasiya ilə AMEA-nın Mərkəzi Elmi Kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat "____"___________ 2016-ci ildə göndərilmişdir.

**Dissertasiya Şurasının elmi katibi,**
**filologiya üzrə elmlər doktoru,**

**professor:** **İmamverdi Yavər oğlu Həmidov**

# GİRİŞ

**Mövzunun aktuallığı:** Həm bədii nəsr, həm də ədəbi tənqidin mövzu və problematikası müstəqillik dövründə daha da zənginləşir və yeni məzmun qazanır. Totalitar rejimin repressiya məngənəsindən, bürokratik, amiranə üsul-idarəsindən çıxan cəmiyyət müstəqil idarəetmə ilə yanaşı, demokratik rəy və fikir plüralizmini özündə əks etdirdi. Ölkə həyatındakı yeni siyasi-ictimai, mənəvi-mədəni şərait bədii ədəbiyyata, eləcə də, ədəbi tənqid və ədəbiyyatşünaslığa da təsirsiz qalmadı. Azərbaycanın siyasi, iqtisadi müstəqilliyi onun bədii, elmi təfəkkürünü də təmizlədi və yeni bir istiqamətdə inkişafını şərtləndirdi. Məhz bu hadisələr fonunda bədii nəsrimiz inkişaf etməyə başladı, həyat, cəmiyyət, hadisələr və insanlar haqqında təsəvvürlər dəyişdi. Sosrealizmin həyatı birtərəfli əksetdirmə üsulundan ayrılan bədii düşüncə yeni həyat hadisələri, obrazlar, xarakterlər yaratdı. Azərbaycan bədii nəsri bu dövrdə köhnə ideoloji meyillərdən təmizlənərək yeni milli müstəqillik mühiti fonunda bədii mətnlər yaratmağa müvəffəq oldu. Bu ədəbi mətnlərin yazılmasında yaşlı və yeni nəsillər-İsa Hüseynov, Anar, Elçin, Sabir Əhmədov, İsi Məlikzadə, Yusif Səmədoğlu, Mövlud Süleymanlı, Seyran Səxavət, Sara Oğuz, Aslan Quliyev, Nəriman Əbdülrəhmanlı, Əliabbas, Ağarəhim Rəhimov, Hüseynbala Mirələmov, Elçin Hüseynbəyli, Kamal Abdulla, Həmid Herisçi, İlqar Fəhmi, Seymur Baycan, Ağayar Şərif, Pərviz, Aqil Abbas, Rəşad Məcid, Əli Əmirli və b. bədii nəsri bədii düşüncə tərzini formalaşdırdı.

Müstəqillik dövrü bədii nəsrinin keçdiyi yol, qazandığı keyfiyyətlər ədəbi tənqidin, nəzəri fikrin də inkişafını şərtləndirir; ədəbi nəzəri fikir nəsrin keçdiyi yolun mürəkkəbliyi, keyfiyyətləri, ayrı-ayrı simalarının yaradıcılıq xüsusiyyətlərini və s. yeni nəzəri-metodoloji prinsiplər əsasında və müasirlik baxımından təhlilə cəlb edir. Bu mərhələdə ədəbi-nəzəri fikir, hər şeydən əvvəl, sosrealizm metodundan birdəfəlik qurtulmaqla yanaşı, yeni qiymətləndirmə və dəyərləndirmə konturlarını da müəyyənləşdirir. Nəzəri fikir mövcud bədii nəsr nümunələrinə siyasi, ideoloji yöndən deyil, sənət və bədii dəyər baxımından yanaşmağa üstünlük verdi. Müstəqillik dövrü ədəbiyyatşünas və tənqidçilərindən B.Nəbiyev, Y.Qarayev, Elçin, İ.Həbibbəyli, Ş.Alışanlı, N.Cəfərov, R.Əliyev. B.Əhmədov, T.Əlişanoğlu, V.Yusifli, C.Yusifli, R.Kamal, Ə.Cahangir, S.Bəşirov, E.Akimova, İ.Musayeva və b. tədqiqat və məqalələrində dövrün bədii nəsri müxtəlif problemlər baxımından elmi-nəzəri cəhətdən təhlil edilir. Mövzunun aktuallığını şərtləndirən əsas faktorlardan biri bədii nəsrin elmi-nəzəri, ədəbi-tənqidi fikirdə dərki problemini araşdırmaqdır.

**Mövzunun öyrənilməsi və işlənmə dərəcəsi.** Müstəqillik dövrü Azərbaycan bədii nəsri və onun ədəbi-nəzəri fikirdə əks olunması içində yaşadığımız ədəbi mühitin, ədəbi prosesin fasiləsiz araşdırma obyektidir. Ədəbi prosesin strukturu tələb edir ki, ədəbi-nəzəri fikir bu prosesdə olan bədii nəsr nümunələrini təhlil etsin, ədəbiyyatımızdakı mövqeyini və yerini müəyyənləşdirsin. Bu cəhətdən 90-cı illərdən sonra dərc olunan bir çox bədii nəsr nümunələri ədəbi tənqidin təhlil sügəcindən keçirilmişdir. Lakin onlarla bədii nəsr nümunələri, eləcə də ayrı-ayrı yazıçıların yaradıcılığı ədəbi tənqidin diqqətindən kənarda qalmışdır. Tənqidin tənqidi baxımından da bu proses istənilən şəkildə baş verməmişdir.

Ədəbi prosesdə bədii nəsrin, eləcə də ədəbi prosesin inkişaf meyilləri, xarakteri və problemləri ilə bağlı ədəbiyyatşünas və tənqidçilərdən Y.Qarayev, Elçin, İ.Həbibbəyli, A.Hüseynov, V.Yusifli, Ş.Alışanlı, N.Cəfərov, T.Əlişanoğlu, C.Yusifli, B.Əhmədov, T.Salamoğlu, E.Mehrəliyev, Ə.Cahangir, S.Bəşirov, E.Akimova, N.Cabbarlı, B.Əlibəyli, E.Tofiqqızı və b. məqalələrində bədii nəsrin inkişaf meyillərinin ayrı-ayrı problemləri araşdırılır. Elçinin "Ədəbiyyatımızın yaradıcılıq problemləri", "Azərbaycan ədəbi prosesində nə baş verir?", "Sosrealizm bizə nə verdi?" və s. ədəbi prosesə həsr edilmiş əsərlərində həm tənqidin ədəbi prosesdəki roluna, həm də bədii nəsrin ədəbi, nəzəri fikirdəki dərki və təhlili problemlərinə də geniş yer verilir. Tənqidçi Sabir Bəşirovun "Əlabbas: Sözün köhnə kişisi", "Nəriman Əbdülrəhmanlı: işıq adam", "Firuz Mustafa: idrakla hissin vəhdəti" monoqrafiyalarında bütövlükdə bədii nəsrin yaradıcılıq problemlərini araşdırılır. Akademik İ.Həbibbəyli, T.Əlişanoğlu, A.Hacılı, Ş.Alışanlı, E.Mehrəliyev, R.Kamal, E.Akimova, N.Cabbarlı, N.Tağısoy, Ə.Cahangir[1] və b. monoqrafiyalarında bədii nəsrin ədəbi-

---

[1] Akimova E. Azərbaycan ədəbi tənqidi müstəqillik illərində (1990-cı illər). Bakı: "Elm", 2008; Akimova E. Yeni təfəkkür və ədəbi tənqid. Bakı: "MBM", 2013; Alışanlı Ş. Ədəbi-bədii düşüncənin sərhədləri. Bakı: "Sabah" nəşriyyatı, 2010; Cabbarlı N. Ədəbiyyatdan intihara. Bakı: "Vektor" Nəşrlər Evi, 2006; Cabbarlı N. Yeni nəsil ədəbiyyatı. Bakı: "Qanun", 2008; Cahangir Ə. Kim yatmış, kim oyaq. Bakı: "Yazıçı", 2012; Hacılı A. Kamal Abdulla: Seçimin morfologiyası. Bakı: Mütərcim, 2010; Həbibbəyli İ. Ədəbi-tarixi yaddaş və müasirlik. Bakı: "Nurlan", 2007; Həbibbəyli İ. Bütün yönlərilə yaradıcı. Bakı: "Elm və təhsil", 2014; Əlişanoğlu T. Müstəqillik illəri Azərbaycan ədəbiyyatı (I hissə; 1990-cı illər). Bakı: "Qanun", 2013, 216 s.; Əlişanoğlu T. Nəsrdə Qarabağ müharibəsinin aspektləri. Bakı: "BQU" nəşriyyatı, 2013, 155 s.; Mehrəliyev E. Azərbaycan ədəbiyyatında Qarabağ mövzusu. Bakı: "Nurlan" nəşriyyatı, 2008; Rüstəm K.

tənqidi düşüncədəki yeri, mövqeyi, problemləri bu və ya digər dərəcədə araşdırılır. Bununla belə, dövrün bədii nəsrinin bütün istiqamətləri, yönləri, problemləri ədəbi, nəzəri fikirdəki təcəssümü tam açılmamış, bu problemə ayrıca bir tədqiqat əsəri həsr edilməmişdir.

**Tədqiqatın obyekti və predmeti.** Dissertasiyanın obyektində duran əsas məsələ müstəqillik dövrü bədii nəsrinin inkişaf meyilləri, yaradıcılıq axtarışlarının araşdırılması və onun ədəbi, nəzəri fikirdə öyrənilməsi problemlərini konseptual şəkildə tədqiq etməkdir. Tədqiqat işinin predmeti isə ədəbi prosesdə daha fəal rol oynayan yazıçıların bədii hadisəyə çevrilən nəsr nümunələridir. Bu dövrdə ədəbi prosesdə iştirak edən otuza yaxın yazıçının böyük bir qisminin əsərləri-hekayə, povest və romanları tədqiqatın əsas predmetini təşkil edir. Dissertasiyada tədqiqata cəlb olunan əsərlərin xronoloji başlanğıcı 1990-cı illərin əvvəllərindən götürülür və bügünümüzə qədər davam edir. Eyni zamanda, ədəbi tənqidi və nəzəri fikrin də bədii nəsr sahəsindəki araşdırmaları da paralel olaraq tədqiqata cəlb edilir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiya bədii nəsrin inkişaf meyillərini, ədəbi, nəzəri, tənqidi fikrin ona münasibətinin araşdırılması məqsədini daşıyır. Bədii nəsrin ədəbi, nəzəri fikirdəki dərkini və qiymətləndirilməsini açmaq, müxtəlif aspektlərdən təhlilini vermək və nəzəri fikrin nəsr prosesinə təsir imkanlarını araşdırmaq da əsas məqsədə xidmət edir. Bütövlükdə dövrün bədii nəsrinin nəzəri fikirdəki düşüncə sistemindəki yerini və mövqeyini qiymətləndirmək də əsas məqsədlərdən biridir. Bu mənada bədii nəsrin nəzəri fikirlə qarşılıqlı dialoqunun baş tutmasına və qarşıya qoyulan məqsədə çatacağımıza inanırıq. Bu məqsədlə aşağıdakı vəzifələrin də həyata keçirilməsini vacib sayırıq:

- nəzəri fikrin ədəbi prosesdəki rolu və mövqeyini araşdırmaq;

-90-cı illər bədii nəsrinin yaradıcılıq məsələlərinin ədəbi tənqiddəki dəyərləndirmə məsələlərini tədqiq etmək;

-bədii nəsrin mərhələ və problemlərinə ədəbi, nəzəri fikrin münasibətini aşkarlamaq;

-ədəbi tənqidin bədii nəsr problemlərinə yanaşma meyarlarını üzə çıxarmaq;

---

Kamal Abdulla: Yazıdan mifə. Bakı: "Mütərcim", 2011; Tağısoy N. Nəsrin axarı: zaman və məkan konteksti. Bakı: "BQU", 2008, 152 s.

-bədii nəsrin janr və üslub axtarışlarını ədəbi tənqid müstəvisində tədqiq etmək;

-nəsrdə Qarabağ müharibəsi mövzusunun ədəbi tənqiddəki nəzəri diskursunu araşdırmaq;

-tarixi romanların ədəbi tənqiddə təhlili problemlərinə münasibət bildirmək;

- postmodernist bədii nəsr və ədəbi tənqidin qarşılıqlı münasibətlərini ədəbiyyatşünaslıq müstəvisində tədqiq etmək; və s.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiyanın elmi yeniliyini şərtləndirən amillərdən biri mahiyyət baxımından yeni olan dövrdə bədii nəsrin nəzəri fikirdəki yerini və mövqeyini araşdırmaqdır. Mövzunun yeniliyini şərtləndirən faktorlardan biri də ədəbi tənqid və nəzəri fikrin nəsrə münasibətinin müxtəlif problemlər üzrə sistemləşdirilməsi və elmi qənaətlərə gəlinməsidir. Mövzunun yeniliyini şərtləndirən ən mühüm amillərdən biri də ədəbi tənqid və nəzəri fikrin nəsrə münasibətinin müxtəlif problemlər üzrə sistemləşdirilməsi və elmi qənaətlərə gəlinməsidir. Yəni ilk dəfə olaraq müstəqillik dövrü bədii nəsrinin ədəbi tənqid və nəzəri fikirdəki yeri və mövqeyi sistemli şəkildə araşdırma obyekti olur. Uzun müddət bədii materiala sovet ədəbi tənqidinin prizması ilə baxan nəzəri fikir ilk dəfə olaraq bədii mətnə yönəlik müstəqil nəzəri yanaşma sərgiləyir. Bununla yanaşı, ədəbi tənqid və nəzəri düşüncənin nəsrin inkişafındakı rolu da müəyyənləşmiş olur.

**Tədqiqatın nəzəri-metodoloji əsasları.** Dissertasiya işi bədii irsin elmi, nəzəri cəhətdən öyrənilməsində tarixilik prinsipinə əsaslanaraq tarixi-müqayisəli tədqiqat metodu əsasında yazılmışdır. Tədqiqat işinin yazılmasında elmi, nəzəri və bədii materiallardan istifadə olunmuş, yeri gəldikcə anoloji araşdırmaların elmi nəticələrinə istinad edilmişdir.

**Tədqiqatın nəzəri-praktik əhəmiyyəti.** Tədqiqat işi mövzunun aktuallığı, əldə edilmiş nəticələri və yenilikləri ilə nəzəri, elmi və praktik əhəmiyyətə malikdir. Dövrün ədəbi tənqidinin və nəzəri fikrinin bədii nəsrlə bağlı araşdırmaları sonrakı tədqiqatlar üçün də müəyyən zəmin yaradır, onun sistemli tədqiq tarixini araşdırmağa kömək edir. Dissertasiyanın praktik əhəmiyyəti ondan ibarətdir ki, onun müddəaları və elmi yenilikləri ali məktəblərin fololoji fakultələrinin tələbələri, magistrantları üçün nəzəri, elmi baza rolunu oynaya və gələcək elmi araşdırmaların stimullaşdırılmasına təsir göstərə bilər.

**İşin aprobasiyası.** Tədqiqat işi Azərbaycan Milli Elmlər Akademiyası Nizami adına Ədəbiyyat İnstitutunun Elmi Şurası tərəfindən təsdiq olunub və həmin institutun "Müstəqillik dövrü Azərbaycan

ədəbiyyatı" şöbəsində yerinə yetirilmiş və "Ədəbi tənqid" şöbəsi ilə birgə müzakirə edilmişdir. Dissertasiyanın başlıca məzmunu, müddəaları, elmi yenilik və nəticələri doktorantın ölkə və xarici elmi nəşrlərində çap etdirdiyi məqalələrdə, eyni zamanda, beynəlxalq konfranslarda etdiyi tezis və məruzələrdə öz əksini tapmışdır.

**İşin quruluşu.** Dissertasiya işi giriş, hər biri iki yarımfəsilə bölünməklə üç fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

## TƏDQİQATIN MƏZMUNU

**"1990-cı illər nəsrinin yaradıcılıq problemləri ədəbi-nəzəri fikirdə"** adlı birinci fəsil iki yarımfəsilə bölünür. **"Nəzəri, tənqidi fikrin ədəbi prosesdə rolu"** bölümündə dövrün ədəbi prosesinin xarakteri araşdırılır. Qeyd olunur ki, XX əsrin sonlarında Azərbaycanda baş verən siyasi, ictimai proseslər xalqın müstəqilliyinə gətirib çıxarmaqla yanaşı, cəmiyyəti dəyişməyə və yeni bir cəmiyyət qurmağa yönəlmişdi. Cəmiyyət bir partiyalı sistemdən çoxpartiyalı sistemə keçid dövrünü yaşayır. Ədəbiyyatşünaslıq elmimizin, ədəbi-nəzəri fikrin mürəkkəb, çətin tarixi, siyasi şəraitdən, mərhələlərdən keçib gəldiyini nəzərə almış olsaq, onda onun yeni siyasi, tarixi şəraitdə mahiyyətcə dəyişməsinin labüdlüyü də aydın olar. Ədəbiyyatşünas Y.Qarayev prosesin artıq başlanıldığından xəbər verərək yazırdı: "Müstəqil dövlətçilik tələblərinə cavab verən, ədəbi, tarixi prosesi, çağdaş ədəbi hərəkatı dünya humanitariyası kontekstində öyrənə bilən elmi-nəzəri istiqamətlərin, qlobal konsepsiyaların yaradılıb təkmilləşdirilməsi işinə başlanılmışdır"[1].

1990-cı ilin əvvəllərində baş verən bu dəyişmə ədəbiyyatşünaslıq elminin predmet və problematikasına da müəyyən əlavələr etmiş olur. Çünki ədəbiyyatşünaslığın tədqiqat materialı, hər şeydən əvvəl, bədii ədəbiyyatdır. Yeni elmi-nəzəri metodologiyanın formalaşması və əsrin ədəbiyyatının yenidən qiymətləndirilməsi ilə bağlı Nizami adına Ədəbiyyat İnstitutunun təşkil etdiyi "Ədəbi-nəzəri fikir iki əsrin qovşağında" (2001), "XX əsr Azərbaycan ədəbiyyatı: yeni baxış və ədəbi-metodoloji dəyərləndirmə meyarları" (2005) mövzusunda beynəlxalq konfranslar[2]

---

[1] Ədəbi-nəzəri fikir; iki əsrin qovşağında. Respublika konfransının materialları. Bakı: "Elm", 2001, s.15.

[2] Ədəbi-nəzəri fikir; iki əsrin qovşağında. Respublika konfransının materialları. Bakı: "Elm", 2001, 232 s.; Humanitar elmlərin müasir durumu və

nəzəri fikrin inkişafını da şərtləndirmişdir. Birinci konfransda ədəbi-nəzəri fikrin yeni mərhələdəki rolu, inkişaf yolu və problemləri araşdırılırdısa, görkəmli tənqidçi və ədəbiyyatşünas M.A.Dadaşzadənin anadan olmasının 100 illiyinə həsr edilmiş ikinci "Ədəbi-nəzəri fikir iki əsrin qovşağında" konfransında yeni elmi təhlil üsulları, qiymətləndirmə meyarları, metodoloji prinsiplər kimi məsələlər müzakirə olunmuşdur. Bütün bunlar onu göstərirdi ki, çağdaş şəraitdə ictimai-siyasi hadisələrin dəyişdiyi bir zamanda ədəbiyyatın özü də dəyişir. Bu isə ədəbiyyatın, bədii düşüncənin yeni metodoloji prinsiplərlə dəyərləndirilməsini şərtləndirirdi. Humanitar təfəkkürdə marksist dünyagörüşündən ayrılma baş verərkən yeni elmi-nəzəri stereotiplərin formalaşmasına şərait yarandığı kimi, müəyyən ifratçılığa da yol verilirdi.

XX yüzilin sonlarında dövrün mürəkkəbliyini şərtləndirən yalnız ədəbiyyatşünaslıq elmimizin bir sistemdən digərinə keçidi ağrılı keçirməsində deyildi, həm də ümumən humanitar təfəkkürdəki boşluğu doldurmaq, yeni humanitar təfəkkürün formalaşmasını təmin etməkdən ibarət idi. Bu mərhələdə ideoloji meyillərin ədəbiyyatşünaslığa və bədii düşüncəyə təsir imkanları azalır. Humanitar təfəkkür ideologiya liderlərinə deyil, saf, təmiz elmə, nəzəriyyəçilərin əsərlərinə üstünlük verir. K.Marks. F.Engels, V.İ.Lenin əsərləri öz funksionallığını itirdiyindən ona istinadlar da azalır. Bunun əvəzində nəzəri ədəbiyyatşünaslıqda Z.Freyd, R.Bart, M.Baxtin, Y.Lotman, Propp və b. əsərlərinə etibarlı mənbə kimi müraciətlər çoxalır.

XXI yüzilin astanasında Azərbaycan ədəbi tənqidi fikrinin mərhələli bir yol keçdiyinin şahidi oluruq; nə qədər mürəkkəb mərhələlərdən keçməsinə rəğmən, böyük bir ədəbi-nəzəri təcrübə də toplamış olur. Doğrudur, ədəbi tənqidin bu mərhələsində bəlli bir metodologiya formalaşdırılmamışdır. Ancaq onu da nəzərə almaq lazımdır ki, nəzəri metodologiya hər zaman dəyişmədiyi kimi, formalaşması üçün də müəyyən bir zaman tələb olunur. Həm də yeni nəzəri-metodologiya axtarışı öz ömrünü başa vurmuş bir metodologiyanın yerini sadəcə bir başqası ilə doldurmaqdan ibarət deyil. Metodoloji məktəblər də hər zaman yaranmır, yaxud hər bir xalq ayrıca bir metodolojiyə özünə uyğun şəkildə sahib olmur, metodoloji daha çox ümumdünya, yaxud hər hansı bir siyasi sistemdə gedən bir proses olduğu üçün onun formalaşması da məhz bu

---

ədəbiyyatşünaslığın nəzəri-metodoloji məsələləri. Beynəlxalq elmi konfransın materialları. Bakı: "Elm", 2010, 554 s.

kontekstdə baş verir. Bunun üçün isə müəyyən vaxt və zaman lazımdır. Bu mənada dünya elmi nəzəri fikrinə inteqrasiya milli ədəbi tənqidin gələcək inkişaf yolunu da müəyyənləşdirə bilər. Dünyanın ən elmi, nəzəri düşüncəsinin Azərbaycan dilinə tərcüməsi bu istiqamətdə aparılan ən mühüm işlərdən biri kimi qiymətləndirilməlidir. Son illərdə Avropa nəzəri fikrinin görkəmli nümayəndələri Eliot, R.Bart, U.Eko və b. nəzəri məqalələrinin, əsərlərinin Azərbaycan dilinə tərcüməsi, eləcə də bu fikirlərə sıx-sıx istinadlar milli elmi, nəzəri fikrin inkişafına təkan verir.

Fəsilin **"Bədii nəsrin inkişaf meyilləri və ədəbi-nəzəri fikir"** adlı ikinci yarımfəsildə bədii nəsrin inkişaf problemləri ilə nəzəri fikir paralel olaraq araşdırılır. Belə bir tendensiyanın üzərində dayanılır ki, istər ədəbi-bədii nümunələrin, istərsə də ədəbi cərəyanların yaranması baxımından ötən əsrin son onilliyi bir hazırlıq mərhələsi olmuşdur. Tarixin bütün dövrlərində keçid mərhələsində həmişə belə olmuşdur. Tənqidçi T.Əlişanoğlu bu dövrdə yaranan ədəbiyyatı "keçid dövrünün mövzuları"[1] adlandırmaqda tamamilə haqlıdır. Çünki bu dövrdə yazılmış bədii nəsr nümunələrində qlobal mövzulara müraciət olmadığı kimi, problematikanın işlənməsində, hadisələrə yanaşmada və yazı üslubunda da publisistikaçılıq, eləcə də gündəlik həyata, hadisələrə adekvatlıq özünü biruzə verirdi. Əsrin sonuna kimi dövrün ədəbi, bədii materiallarını təhlilə cəlb edən tənqidi məqalələrə, demək olar ki, çox az-az hallarda rast gəlmək olur, dövrün ədəbi prosesinə icmal məqalələr yazılmır, fundamental monoqrafiya və tədqiqat əsərləri dərc olunmurdu. Yalnız 2000-ci ildən sonra "Ədalət", "Yeni Azərbaycan", "Eksress", "Rezonans", "525-ci qəzet" və s. qəzetlərdə həm bədii əsərlərə (əsasən şeir və hekayə), həm də bu əsərlər barədə təhlili, icmal məqalələrə geniş yer verilmişdir. Bunun nəticəsi olaraq yeni əsrin əvvəllərindən başlayaraq tənqidçilərdən A.Hüseynov, N.Cəfərov, N.Qəhrəmanlı, V.Yusifli, A.Əmrahoğlu, T.Əlişanoğlu, C.Yusifli, Ə.Cahangir, B.Əhmədov, R.Kamal, B.Əlibəyli, İ.Musayeva, E.Akimova və b. məqalələrində bədii nəsrin problemləri təhlil edilir.

Arif Abdullazadənin "Qanlı yaddaş", Mövlud Süleymanlının "Günah duası", Sabir Əhmədlinin "Yanvar hekayələri", "Kütlə", Əli Əmirlinin "Meydan", "Ölü doğan şəhər", İsi Məlikzadənin "Qırmızı şeytan", Vaqif Sultanlının "İnsan dənizi", Vidadi Babanlının "Ömürlük cəza", İsmayıl Şıxlının "Ölən dünyam", Anarın "Otel otağı", Əkrəm

---

[1] Əlişanoğlu T. Müstəqillik illəri Azərbaycan ədəbiyyatı (I hissə; 1990-cı illər). Bakı: "Qanun", 2013, s.32

Əylislinin "Yəmən", Yusif Səmədoğlunun "Deyilənlər gəldi başa", İsa Muğannanın "Gürun", "Cəhənnəm", K.Abdullanın "Yarımçıq əlyazma", "Sehrbazlar dərəsi", N.Əbdülrəhmanlının "Yalqız", Yolsuz", "Yolçu", Əli Əmirlinin "İldırımötürən", "Meydan" və "Ölü doğan şəhər", Ağarəhim Rəhimovun "Canavar balası", "Qoşa qanad", "Gəlinqayada qoşa məzar", "İkili dünyam", "Övlaq keçidi", "Səfalət" və s. hekayə, povest və romanlarının ədəbi tənqid və ədəbiyyatşünaslıqda dərki problemi araşdırılır.

Tarixi həqiqətlər yalnız tarix kitabları üçün deyildir, bu faktları, faciələri bədii düşüncəyə çevirmək, müxtəlif janrlı əsərlərdə əks etdirmək onu arxivin tozundan qurtararaq yaşamaq haqqı vermək işində bədii nəsrimiz öndə gedir. Baxmayaraq ki, ədəbi tənqid və nəzəri fikir bu cür əsərlərə çox az yer verir, buradakı tarixi həqiqət və bədii gerçəkliyinin təzahürü formalarına, sənətkarlıq xüsusiyyətlərinə az diqqət yetirir. Halbuki, millət yalnız tarixlə yetişib formalaşmır, həm də (daha çox!) bədii ədəbiyyatla tərbiyə olunur və formalaşır. Bu cəhətdən bu dövr Azərbaycan bədii nəsrinin inkişaf meyilləri içərisində bu əsərlərin yeri aydın görünür. Onu da müşahidə etmək mümkün olur ki, 1990-cı illərdə yazılan bədii nəsr əsərləri öz qiymətini həmin illərdə ala bilmir, çünki ədəbi tənqid bu əsərlərə qiymət verməkdə gecikir. Bu dövrdə yazılan məqalələrdə daha çox keçid dövrünün mövzuları, böhran durumu və s. araşdırılırdı. Ədəbi tənqidi isə ən çox Qarabağ mövzusunun işlənmə səviyyəsi narahat edirdi. Ədəbi mətnlərin azlığı, ədəbi prosesin funksionallığının zəifləməsi yeni təfəkkürlü tənqidin potensialının bütünlüklə üzə çıxmasına mane olurdu

**"Bədii nəsrin yeni mərhələsi ədəbi tənqiddə"** adlı ikinci fəsil **"2000-ci illər ədəbi tənqidində bədii nəsr problemləri" və "Nəsrdə müharibə mövzusunun nəzəri diskursu" adlı yarımfəsillərə bölünür.** Bu dövrdə Azərbaycan nəsrinin çevik formalarından biri olan hekayə aparıcı rol oynayır. 90-cı illərdə hekayənin özünəməxsus yol keçməsi sonrakı inkişafına da təsir göstərmişdir. Baxmayaraq ki, 2000-ci illərdən sonra roman janrı bədii nəsrdə aparıcı mövqeyə keçir, bununla belə hekayə bütün hallarda həm məhsuldarlığına, həm də hadisələrə adekvat cavab vermək baxımından aktuallığını qoruyub saxlaya bilir. Maraqlıdır ki, hekayənin gənclərin yaradıcılığında aparıcı janr olması ədəbi tənqid və nəzəri fikrin də diqqətindən qaçmamışdır. Əlbəttə, bu hekayələri təhlil edərkən diqqəti cəlb edən bu hekayələrin struktur və ideya cəhətdən yeni bədii düşüncəni ehtiva etməsidir. Tənqidçi V.Yusifli hekayələri təhlil edərkən diqqəti buna yönəldərək yazır: "Müasir hekayələrdə onun poetikası üçün səciyyəvi sayıla biləcək yeni, maraqlı xüsusiyyətlər də formalaşmağa

başlayır. Məsələn, bəzi hekayələrdə dramatik ünsürlər daha qabarıq nəzərə çarpır, bir sıra hekayələrdə köhnə struktur elementlər dağılmağa üz qoyur. Bütün bunlar da ədəbi tənqidin nəzər diqqətini hekayə üzərində cəmləməliydi"[1].

Altmışıncılar içərisində Elçinin hekayələri yeni dövrün problemlərini təsvir etmək baxımından ədəbi tənqidin diqqət mərkəzində olmuşdur. Xüsusilə onun "Qarabağ şikəstəsi" hekayəsini ədəbi tənqid geniş təhlil etmişdir. Tənqidçi V.Yusifli bu hekayəni "kiçik povest" adlandıraraq yazır: "...Elçin hər dəfə bu sadiq oxucuları üçün YENİ BİR İNSAN kəşf edə bilir, yeni bir hadisə ilə onları maraqlandırır, təsir altına alır. Əslində təsvir edilən hadisələr qeyri-adi deyil, gözlənilməz də deyil, amma bu hadisələrin içində görünən obrazlar adi olsalar da, qeyri-adilikləri ilə yaşadıqları mühitdə seçilə bilirlər"[2].

F.Mustafanın "At günü" hekayəsi insan-təbiət münasibətləri və azadlıq, sərbəstliyin təsviri baxımından son dərəcə orijinaldır. Yazıçı atla insanın taleyini paralel olaraq təsvir edir. Bu mənada dayçanın başına gələn hadisələrə dözməyərək intihar etməsi mənəviyyatın, təmizliyin qələbəsi kimi səslənir. Hekayənin ideya yükü zəngindir. Buna görə də ədəbi tənqid və nəzəri fikir hekayəni bir neçə kontekstdə təhlilə cəlb etmişdir: "Firuz Mustafanın "At günü"ndəki ilxının sərbəstliyi, azadlığı da nisbi azadlıqdır. Əslində ilxının üfüqə doğru qaçışının özü də dayçanın qaçışı kimi məğlubiyyətə məhkumdur"[3].

Ədəbi tənqid bu dövrdə yazılan ən yaxşı bədii nəsr əsərlərini təhlilə cəlb etmiş, onun ədəbi prosesdə və yazıçı yaradıcılığındakı yerini və mövqeyini müəyynləşdirməyə çalışmışdır. Ədəbi nəzəri fikrin ayrı-ayrı vaxtlarda Anarın "Otel otağı", "Ağ qoç, qara qoç", S.Əhmədlinin Qarabağ trilogiyası ("Axirət sevdası", "Kef", "Ömür urası"), Elçinin "Qarabağ şikəstəsi", "Bayraqdar", N.Əbdülrəhmanlının "Yalqız", "Yolçu", "Yolsuz", "Könül elçisi", Kamal Abdullanın "Yarımçıq əlyazma", "Sehrbazlar dərəsi", F.Mustafanın "hekayələri, "Qapı" povesti, M.Süleymanlının "Erməni adındakı baş hərflər", S.Səxavətin "Yəhudi əlifbası", Pərviz Cəbrayılın "Yad dildə", Aqşin Yeniseyin "Göləqarğısancan", Afaq Məsudun "Azadlıq", Aqil Abbasın "Dolu", Hüseynbala Mirələmovun "Gəlinlik paltarı", Sara Oğuzun "Çərxi fələk", Həmid Herisçinin

---

[1] Yusifli V. Yolayrıcı. Bakı: "Vektor" Nəşrlər Evi, 2004, s.124
[2] Yusifli V. Ədəbi həyat. Bakı: "Vektor" Nəşrlər Evi, 2014, s.178-179
[3] Bəşirov S. Firuz Mustafa: idrakla hissin vəhdəti. Bakı: "Araz", 2012, s.14

“Nekroloq”, “Əli və Nino” romanları, Eyvaz Əlləzoğlunun “Odunçu qayıdır”, Əlabbas Bağırovun “Qiyamçı”, "Qaraqovaq çölləri", Elxan Qaraqanın “A”, Səfər Alışarlının “Maestro”, Etimad Başeçidin “Min yol belə söylər” roman və povestləri, Rafik Tağı, Fəxri Uğurlu, Rəşad Məcidin hekayələrində yeni mövzu və problematika ilə yanaşı, bədii nəsr texnologiyalarından da istifadə edilmişdir.

**"Nəsrdə müharibə mövzusunun nəzəri diskursu"** adlı ikinci yarımfəsildə müharibə ilə bağlı yazılan əsərlərə nəzəri fikrin münasibəti araşdırılır. Hərbi jurnalist kimi fəaliyyət göstərən Vaqif İsaqoğlunun, Rəşid Faxralının, Vahid Məhərrəmlinin publisistik və bədii yazılarında müşahidə etdikləri, yaxud şahidi olduqları hadisələri qələmə aldığından tendensiyaçılıq bədii dəyərə üstün gəlirdi. Yazıçılardan İsi Məlikzadə, Sabir Əhmədov, Vidadi Babanlı, Ağarəhim Rəhimov, Əliabbas, Mehriban Vəzir və başqalarının əsərlərində Qarabağ mövzusu hadisələrin isti olmasına rəğmən yüksək bədiiliklə təhlil edilir. Bu əsərlər içərisində İ.Məlikzadənin "Məndən nigaran qalmayın" (1990), Əliabbasın "Halal qan" (1992), V.Babanlının "Ana intiqamı" (1993), Nigarın "Ağlayan buludlar" (1995), "Daş hasar" (1997), Ağarəhim Rəhimovun "Canavar balası" (1996), R.Faxralının "Diqqət, diqqət" (1997), "Səngərdən əbədiyyətə" (2002) və s. hekayə, povest, sənədli və bədii romanları dərc edilmişdir.

Nəsrdə Qarabağ mövzusuna maraq 90-cı illərin ortalarından artır və bir-birinin ardınca yaddaqalan əsərlər yazılır. S.Əhmədlinin Qarabağ trilogiyası ("Axirət sevdası", "Kef", Ömür urası"), A.Rəhimovun "Canavar balası", Elçinin "Bayraqdar", "Qarabağ şikəstəsi", A.Abbasın "Qarda açan qar çiçəyi", "Dolu", Seymur Baycanın "Quqark", Şərif Ağayarın "Haramı" əsərləri bu mövzu, üslub, ideya cəhətdən ədəbi tənqidin diqqətini çəkmiş və ətrafında nəzəri, tənqidi diskurs açılmışdır. S.Əhmədlinin trilogiyasının ilk əsəri olan "Kef"də yazıçı cəmiyyətdə gedən ictimai-siyasi prosesləri təsvir edir. Elçinin "Bayraqdar" povesti də ədəbi tənqidin diqqətini cəlb etməməsi təəccüb doğurur. Povestdə dövrün çox aktual, mənəvi-əxlaqi problemlərinin qoyuluşuna rəğmən, ədəbi tənqidin bu əsərə gərəkən münasibəti göstərməməsini tənqidçi Bəsti Əlibəyli "bəlkə bunun bir səbəbi də odur ki, tənqidin cəsarəti hələ ki, ədəbiyyatın cəsarətindən geridə qalır"[1] şəklində ifadə edir.

A.Abbasın "Dolu" romanı ədəbi-nəzəri fikrin ən çox diqqət yönəltdiyi əsərlərdəndir. Başqa sözlə, müstəqillik dövründə yaranan nəsr

---

[1] Əlibəyli B. Çağdaş ədəbi tənqid və ədəbi proses: 2004-2007-ci illər. "525-ci qəzet", 2007, 15 iyun; 23 iyun; 30 iyun

əsərləri içərisində ədəbi tənqid tərəfindən ən çox müzakirəyə əsərlərdən biri də "Dolu" romanıdır. Bunun bir səbəbi əsərin Qarabağ hadisələrindən bəhs etməsidirsə, digər səbəbi yazıçının hadisələrə yanaşma üsulu və özünəməxsus təsvir etməsindədir. Roman haqqında N.Cəfərov, V.Səmədoğlu, Ə.Əmirli, İ.Musayeva, T.Əlişanoğlu, C.Yusifli, E.Akimova, E.Tofiqqızı və başqalarının yazdığı məqalələrdə geniş fikir mübadiləsi aparılmışdır. Lakin söylənən bu fikirlərdə bir-birinə ziddiyyətli qənaətlər də yer almışdır. N.Cəfərov "Dolu" ədəbiyyatın Qarabağnaməsidir" fikrilə əsəri yüksək qiymətləndirirsə, İ.Musayeva "Ancaq Aqil Abbasın iyirmi ilə yazdığı "Dolu" adlı romanı göstərdi ki, ədəbiyyatımız hələ də hərbdə və siyasətdə olduğu kimi, Qarabağ dərdini nəinki çözməkdə, hətta ifadə etməkdə gücsüzdür" qənaətinə gəlirdi. Hərçənd sonuncu qənaətdə tənqidçinin yazıçıdan dünyanın həll edə bilmədiyi problemin həlli üçün çox şey istəməkdə nə dərəcədə haqlı olduğu başadüşülən deyil. T.Əlişanoğlu isə romanın həm müsbət, həm də çatışmayan cəhətlərinə toxunaraq ona adekvat yanaşmağa üstünlük verir[1].

Beləliklə, müharibə diskursunun Azərbaycan nəsrində xüsusi bir yer tutduğunu görməmək mümkün deyil, hərçənd ədəbi tənqid daim müharibə mövzusunda əsərin az yazılmasından şikayətlənmişdir. Halbuki müharibə problematikasında kifayət qədər həm hekayələr, həm povest və romanlar yazılmışdır. Lakin bu əsərlərin yalnız bir qismi yadda qalmış, yaxud ədəbi tənqidin, nəzəri fikrin diqqətini cəlb etmişdir.

İki yarımfəsilə bölünən **"Yeni bədii nəsr təfəkkürü və ədəbi-nəzəri fikir"** adlı üçüncü fəsilin **"Tarixi romanlar ədəbi tənqid müstəvisində"** ilk yarımfəsilində qeyd olunur ki, tarixşünaslığın durmadan yeniləşməyə doğru getməsi müasir tarixin yeni statusunu müəyyənləşdirdiyi kimi, bədii düşüncənin də tarix vüsətini, keçmişə baxışını formalaşdırdı. Bu mərhələdə bədii nəsrimiz öz çiyinlərində heç bir "izm"in (xüsusən də sosialist realizmin!) ağırlığını hiss etməyərək keçmiş-indi-gələcək körpüsünü qurmaq yolunda yeni əsərlərin yazılması üçün münbit zəmin yarandı. Bunu nəzərdə tutan görkəmli ədəbiyyatşünas, tənqidçi Y.Qarayev ədəbiyyatın tarixə, keçmişin böyük hadisələrinə müraciətinin səbəblərini izah edərək yazırdı: "...tarixdə də şəxsiyyət və epoxa, "mən" və zaman münasibətlərinin əvvəlini, kökünü axtarır, cəmiyyət və xalq

---

[1] Əlişanoğlu T. Bir daha Aqil Abbasın "Dolu" romanı haqqında. "Tənqid.net" jurnalı, 2011, N8, s.308-314.

qarşısında cavabdehlik problemini tarixi-epik mövzunun aynasında və sınağında təhlilə cəlb edirlər"[1].

Mahmud İsmayılovun "Sənin ulu baban", Davud Nəsibin "Cavanşir", "Cavanşisiz məmləkət", Əfqanın "Bəy İnal" əsərlərində tariximizin az öyrənilmiş səhifələrinə işıq tutulur. İ.Şıxlının "Ölən dünyam" romanında xalqımızın "Dəli Kür"dən sonrakı həyatının bir çox tarixi məqamları işıqlandırılır. Mustafa Çəmənlinin "Ölüm mələyi", Sabir Rüstəmxanlının "Ölüm zirvəsi", Samir Tağızadənin "Devran" (Ankara), Əzizə Cəfərzadənin "Əldən ələ", "Gülüstandan öncə", "Zərrintac Tahirə", "İşığa doğru", "Bir səsin faciəsi", "Rübabə Sultanım" və s. romanlarını yazmışdır. Ə.Cəfərzadə "Hun dağı" povestində də türk tayfalarından hesab edilən qədim hunların tarixinə işıq tutulur. Kamal Abdullanın "Yarımçıq əlyazma", Yunus Oğuzun "Nadir şah" , "Əmir Teymur-zirvəyə doğru", "Təhmasib şah", Çingiz Hüseynovun "Doktor N" və s. romanlarında tarixi şəxsiyyətlərin həyatı və fəaliyyəti bədii tədqiq obyekti olur.

Nəriman Əbdülrəhmanlının "Könül elçisi, yaxud Don Xuan de Persia-Oruc bəy Bayatın hekayəti" romanında isə Səfəvi hökmdarı I Şah Abbasın zamanında Moskov çarlığına və Avropa ölkələrinə göndərdiyi səfir Oruc bəy Bayatın (Qərbdə Don Xuan de Persia adı ilə məhşurdur) başına gələn hadisələrdən danışılır. Elçin Hüseynbəylinin "Şah Abbas" və Oruc bəy Bayatın həyatından bəhs edən "On ikinci həvvari" romanları da müstəqillik dövründə tarixi düşüncənin bədii vüsəti olaraq diqqət çəkir.

Müstəqillik dövründə ədəbi tənqidin bədii nəsrdə ən çox diqqət yetirdiyi və mübahisələrə səbəb olan əsərlər tarixi mövzuda yazılmış əsərlər olur. Yəni tarixi romanların yazılması ilə onun ədəbi-nəzəri fikirdə təhlili də baş verir. Müstəqillik dövründə yazıçılar tarixə sərbəst yanaşdığı, istədiyi mövzuda, tarixi şəxsiyyət və hadisələrdən yazdığı kimi, tənqidçi və ədəbiyyatşünaslar da bu əsərlərə müxtəlif mövqelərdən yanaşmağı bacarırdılar. Y.Axundlu, Ş.Alışanlı, T.Abdin, B.Əhmədov, T.Əlişanoğlu, T.Salamoğlu, İ.Musayeva və b. bu və ya digər şəkildə tarixi mövzularda yazılmış bədii nəsr nümunələrini təhlil edərək müəyyən qənaətlərə gəlmişlər. Bu dövrdə yazılan tarixi romanlara münasibətdə ədəbi tənqid bir məsələdə yekdilliyini qoruyub saxlayır. Ədəbi-nəzəri fikir tarixi hadisə və şəxsiyyətlərə münasibətdə yazıçı sərbəstliyinin zəruriliyini önə çəkirlər. Halbuki, sosrealizmin sənətkarın qarşısına çəkdiyi sədlərdən biri də məhz tarixi şəxsiyyət və hadisələrə münasibət idi. İndinin özündə də bəzən

[1] Qarayev Y. Tarix: yaxından və uzaqdan. Bakı: "Sabah", 1995, s.23-24

yazıçının tarixi hadisələri təhrif etməsi, yaxud olduğu kimi təsvir etməməsi kimi iradlarla rastlaşmalı oluruq. Lakin tarixi gerçəkliklə bədii təxəyyülün sintezinin baş verməsi, yaxud srhədlərinin düzgün müəyyənləşdirilməsi tarixi gerçəkliyin təsvirində ən yaxşı yol hesab olunur.

Ədəbi nəzəri fikrin və tənqidin dəyərləndirdiyi və yüksək qiymət verdiyi əsərlərdən biri İ.Şıxlının "Ölən dünyam" romanıdır. Yazıçı "Dəli Kür"də olduğu kimi burada da mürəkkəb və ziddiyyətli tarixi hadisələri əsərin süjet xətti və ideyasında əridərək təsvir edir. İki nəslin (Alqazaxlılarla Çıraqlılar) arasında gedən nəsil ədavəti fonunda yazıçı 20-ci illər tarixi hadisələrini bütün təfərrüatı ilə təsvir etməyə nail olur. Azərbaycan xalq Cümhuriyyəti və 20-ci illər hadisələrinin tarixi həqiqətləri bədii şəkildə çatdırılır. Ədəbiyyatşünas T.Salamoğlu doğru olaraq romanın mürəkkəb strukturunu Q.Q.Markes, M.Bulqakov, Ç.Aytmatov yaradıcılığında əyaniləşən strukturla müqayisə edərək yazır: "İ.Şıxlı da "Ölən dünyam" romanında vermək istədiyi tarixi materialın bədii ifadəsi üçün müxtəlif zaman kəsiyində cərəyan edən hadisələri əks etdirən paralael süjetlərin bir mürəkkəb kompozisiya sistemində yerləşdirilməsi üsulundan məharətlə yararlanıb"[1].

Bu mənada iki romanın birdən-birə Şah Təhmasib dövrünə həsr edilməsi tarixdə qalan boşluqları doldurmağa xidmət etdiyi kimi, həmin dövrün hadisələrinin xarakterindən, eyni zamanda, şah Təhmasibin tərcümeyi-halının bədii əsər üçün zəngin material verməsindən də irəli gəlir. Bu mənada Mustafa Çəmənlinin "Xallı gürzə", Yunus Oğuzun "Şah Təhmasib" romanlarında Səfəvi hakimiyyətinin məhz həmin dövrünün tarixi hadisələri bədii tədqiq obyektinə çevrilir.

**"Postmodernist bədii nəsr və ədəbi tənqid"** adlı ikinci yarım-fəsildə ədəbi-nəzəri fikrin postmodernist bədii nəsrə münasibəti tədqiq obyekti edilir. İlk postmodernist nümunələrin yaranması ilə ədəbi tənqid dərhal ənənəvi düşüncə stereotiplərini dağıdan bu anlayışı saf-çürük etməyə, ədəbiyyatımızdakı yerinə və mövqeyinə qiymət verməyə çalışdı. Baxmayaraq ki, postmodernizm anlayışı, eləcə də postmodern əsərlərlə bağlı elmi, nəzəri fikirdə mübahisələr hələ də davam edir və belə görünür ki, bu mübahisələr hələ bundan sonra da gedəcək. Bir şey aydındır ki, yalnız ədəbiyyat və mədəniyyət hadisəsi olmayan postmodernizm çağdaş üslubların zənginliyini, ifadə imkanlarının genişliyini təmin etmiş oldu; uzun müddət davam edən sabit ənənə sükutu pozuldu, yeni dəyərlər

[1] Salamoğlu T. İsmayıl Şıxlının bədii nəsri. Bakı: "E.L.", 2014, s.157

tənasübü formalaşmağa başladı. İlk vaxtlar postmodenizmlə bağlı nəzəri fikir bir qədər zorlansa da, getdikcə onun poetikası haqqında ədəbi tənqid daha aydın fikir söyləmək imkanı əldə etdi. Burada ədəbiyyatşünas və tənqidçilərdən Q.Quliyev, N.Mehdi, A.Talıbzadə, T.Əlişanoğlu, C.Yusifli, R.Kamal və b. postmodernizm nəzəriyyəsi və postmodern bədii nəsrilə bağlı məqalə və tədqiqatlarını xüsusi qeyd etməliyik. N.Əbdülrəhmanlının "Yolsuz", İ.Fəhminin "Qarğa yuvası", Pərvizin "Yad dildə", Əliəkbərin "Amneziya", Ş.Ağayarın "Haramı", Aqşin Yeniseyin "Göləqarğısancan" və s. əsərlərində yeni nəsr texnologiyası ilə yanaşı, postmodern düşüncə tərzini də təmsil edir. N.Əbdülrəhmanlının "Yolsuz" romanının modern strukturu vardır; üslub polifonikliyi və sinkretikliyi ilə seçilir. Romanda dedektiv süjet xəttinin də olması, strukturunda postmodern elementlərindən sintez istifadə onu postmodernistlərə bir qədər də yaxınlaşdırır.

"Öləngi", "Yad dildə" romanlarının müəllifi Pərvizin mövzunun seçilməsi, psixoloji təsvir üsulu və müəllif təhkiyəsi orijinallığı ilə fərqlənir. Hətta onun əsərlərində heç kimdə olmayan yaşadığı dövrün, zamanın siyasi proseslərini psixoloji təsvirlərinə geniş yer verilir. "Öləngi"də yazıçı eksperiment halında etdiyi yanaşmaları "Yad dildə"də peşəkarlıq səviyyəsinə çatdırır. Romanın çoxplanlı, şaxəli süjet xətti üzərində qurulması onun çağdaş romanın tələblərinə cavab verməsini şərtləndirir. Romanda yazıçı K.Abdullanın "Yarımçıq əlyazma"sında olduğu kimi, üç dövrü, zaman və məkanı birləşdirir; mifoloji təsəvvürlərin hakim olduğu qədim dövr, dini-fəlsəfi düşüncənin hökm sürdüyü orta əsrlər dövrü və çağdaş dövr. Maraqlıdır ki, yazıçının romana seçdiyi üç epiqraf da rəmzi məna daşıyır. Müəllifin üç haqq aşiqinin (Əli ibn Əbu Talib, Hüseyn ibn Əli və İmadəddin Nəsimi) əsərlərindən epiqraf gətirməsi onların fəlsəfi və dünyəvi görüşləri arasında müəyyən bağ yaradır. Yazıçı hadisələri, zaman və məkanı iç-içə təsvir edərkən postmodern üslubdan maksimum yararlanmağa çalışır. Hətta o, İçərişəhəri, Şirvanşahlar sarayını təsvir edərkən onun postmodern üslubda təmir olunduğunu nəzərə çarpdırır. İçərişəhərin iyirmi səkkiz məhəllədən ibarət olması və digər təsvirlərdə rəmzlərdən istifadə, mistik-fəlsəfi məzmun qatı onun postmodernizm elementlərindən istifadə etdiyini göstərir. 28 rəqəmini yazıçı təsadüfi gətirmir, onu "Quran"ın nazil olduğu əlifbanın mistik məzmunu ilə bağlayır.

İ.Fəhmi "Qarğa yuvası" əsərində də yenidən Koroğlu mövzusuna qayıtmış və postmodern dekonstruksiya ilə işləməyə çalışmışdır. Burada da müəllifin məqsədi Koroğlunun şəxsiyyətinə, onun yaşadığı və mübarizə apardığı dövrə yeni ştrixlər əlavə etmək cəhdləri öz bəhrəsini verir. Onun

əsərlərində tarixi şəxsiyyətə yeni gözlə baxmaq, mövcud süjetə yeni can vermək, intriqanı gücləndirmək, bədii mətnin texnoloji sirlərini artırmaq kimi xüsusiyyətlər onu postmodernizmə daha da yaxınlaşdırır. Eyni müşahidəni K.Abdullanın "Sehrbazlar dərəsi", Elçin Hüseynbəylinin "Balıq adam" əsəri haqqında da demək mümkündür. Hər iki yazıçının istifadə etdiyi bədii simvollar, texnoloji nəsr elementləri (süjet xəttinin dinamik inkişafı, hadisələrin intriqa üzərində qurulması, fərqli zaman və məkan, sehr, cadu və s.) yalnız əsərin oxunaqlığını təmin etmir, həm də onun mahiyyətini dəyişməyə yönəlir.

K.Abdullanın "Sehrbazlar dərəsi" romanın mürəkkəb süjet xəttinə, fərqli zaman və məkan kontekstinə, bədii nəsr texnologiyasının konstruktiv funksionallığına malik bir roman olaraq postmodernizmə daha da yaxınlaşır. Bütün bunlara rəğmən postmodernizmin ən yaxşı nümunəsi kimi K.Abdullanın "Yarımçıq əlyazma" romanı üzərində ayrıca dayanmaq lazım gəlir. Ona görə ki, bu roman haqqında istər ölkə, istərsə də xarici mətbuatda dərc edilən məqalələrdə onun uğurları ilə yanaşı, ədəbi mühitin qəbul etməyə hazır olmadığı tərəflərindən də bəhs edilmişdir. Roman haqqında ziddiyyətli fikirlərin yer tutmasının başlıca səbəbi də onun ənənəvi roman anlayışından çıxması və yeni bir roman çevrəsini özündə ehtiva etməsidir. Anar, Asif Hacılı, Vaqif Yusifli, Tehran Əlişanoğlu, Cavanşir Yusifli, Etimad Başkeçid, Rüstəm Kamal, Əsəd Cahangir, Niyazi Mehdi, Aydın Talıbzadə, Vaqif İbrahimoğlu və başqa onlarla tənqidçi və ədəbiyyatşünaslar "Yarımçıq əlyazma" romanı ilə bağlı yazdıqları məqalələrdə romanın ədəbiyyatımız tarixindəki yerini, mövqeyini müəyyənləşdirməyə çalışmışlar.

Bədii nəsrimizdə postmodernizmin təzahürü ədəbi tənqidin də işini artırmış oldu, necə deyərlər, ədəbi tənqid və nəzəri fikir bir tərəfdən postmodernizm anlayışını müxtəlif çalarlardan, dünyadakı ədəbi proseslərdə onun rolunu aydınlaşdırmalı olur, bir tərəfdən də postmodern üslubda yazılan, yaxud özlərini postmodernist adladıran yazıçıların əsərlərini təhlil etməklə ədəbiyyatımızdakı təzahür problemlərinə münasibət bildirir.

Dissertasiyanın **"NƏTİCƏ"** hissəsində tədqiqata yekun vurularaq ədəbi tənqidin nəsrin inkişafı və problemlərilə bağlı müəyyən qənaətlərə gəlinmişdir. Bu dövrdə dünyanın ictimai-siyasi mənzərəsi dəyişdiyi kimi, humanitar təfəkkürdə də qlobal dəyişikliyin baş verməsi nəticəsində mövcud ideologiyanın təsiri altında formalaşan ədəbiyyatşünaslığın yeni mərhələsini şərtləndirməli oldu. Sonrakı proseslərdə ədəbi tənqidin fəallığı artdığı kimi, dəyərləndirmələrdə də müstəqillik düşüncəsi boy verdi. Ədəbi

tənqid və nəzəri fikir bədii nəsri qiymətləndirərkən yeni meyarlardan çıxış edir, getdikcə köhnə stereotiplərdən imtina edilir. Dünya elmi nəzəri fikrinə inteqrasiya bir qədər də artmış, Avropa nəzəri fikrinin görkəmli nümayəndələri Eliot, R.Bart, U.Eko və b. nəzəri məqalələrinin, əsərlərinin tərcüməsi milli elmi, nəzəri fikrin inkişafına da təkan vermişdir.

**Dissertasiyanın əsas məzmunu müəllifin aşağıdakı tezis və məqalələrində öz əksini tapmışdır:**

1. Müstəqillik dövrü Azərbaycan nəsrində müharibə mövzusunun nəzəri diskursu. Bakı Qızlar Universiteti, "Elmi əsərlər", 2014, № 4 (20), s. 39-45
2. Ən yeni nəsrin ədəbi mətnləri tənqiddə. Azərbaycan Milli Elmlər Akademiyası "Xəbərlər", Humanıtar elmlər seriyası. Bakı, "Elm", 2014, № 2 , s.115-118
3. Müasir ədəbiyyatşünaslığın təhlili metodologiyasına bir baxış. "Filologiya məsələləri". "Elm və təhsil", Bakı, 2014, s. 360-365
4. Kamal Abdullanın "Yarımçıq əlyazma"romanı ədəbi tənqiddə. "Ədəbiyyat məcmuəsi". Nizami adına Ədəbiyyat İnstitutunun əsərləri. Bakı, "Elm və təhsil", 2014, s. 210-215
5. A.Abbasın "Dolu" romanı ədəbi tənqidi fikirdə. Bakı Qızlar Universiteti, "Elmi əsərlər". Bakı, 2015, № 1 (21), s.18-23
6. Müstəqillik dövrü Azərbaycan nəsrində millilik diskursu. Bakı Slavyan Univertiteti, Conferse book, Müqayisəli ədəbiyyat və mədəniyyət: Ədəbiyyat və mədəniyyətin başlanğıc meyarları. Bakı, 2015, s. 37
7. XX əsrin 90-ci illər bədii nəsrinin inkişaf meyilləri ədəbi prosesdə. Bakı Dövlət Universiteti “Türk xalqları ədəbiyyatının aktual problemləri” mövzusunda Respublika elmi konfransının materialları. 2015, № 2, s. 220-226
8. Bir tarixi gerçəkliyə iki yazıçının mövqeyi. Bakı Qızlar Universiteti, "Elmi əsərlər". 2015, №2 , s. 30-35
9. Azərbaycan postmodernist bədii nəsri və ədəbi tənqid. Bakı Qızlar Universiteti, "Elmi əsərlər". 2016, № 1, s.10-15
10. Проблема развития постмодернистской прозы в литературной критике Азербайджана. Тернопільський національний педагогічний університет імені Володимира Гнатюк. Серія Літературознавство № 43. 2015, с. 296-306
11. Müstəqillik dövrü tarixi romanları ədəbi tənqid müstəvisində. Azərbaycan Milli Elmlər Akademiyası M.Füzuli adına Əlyazmalar İnstitutu. "Filologiya məsələləri". № 3 , Bakı, "Elm və təhsil", 2016, s. 302-307

**Э.Г.Рагимова**

## Азербайджанская проза в литературно-теоретической мысли

## (1990-2010 гг.)

## РЕЗЮМЕ

Диссертационная работа состоит из введения, трех глав, каждая из которых состоит из 2 параграфов, заключения и списка использованной литературы.

В введении определяются актуальность диссертационной работы, история темы исследования, предмет и объект, цель и задачи, научная новизна и методологическая база, обосновывается теоретическая и практическая значимость, апробация и структура диссертационной работы

В первой главе, называющая как "Литературно-теоретическое понимание проблемы творчества в 90-х гг.", исследуются теоретическая проблема, роль критического мышления в литературном процессе, проблемы тенденции развития периода 90-х гг.На этом этапе литературно-теоретическая мысль, прежде всего, освободившись от метода соцреализма, также определяет контуры новой оценки и ценностей. Теоретическая мысль позволяет давать преимущество примерам художественного произведения не с точки зрения политической и идеологической направленности, а с точки зрения искусства и художественной значимости. В исследованиях и статьях среди литераторов и критиков художественного произведения периода независимости , такие как Б.Набиев, Й.Гараев, И. Хабибейли, Ш.Алышанлы, Н.Джафаров, Р.Алиев, Б.Ахмедов, Т.Алишаноглы, В.Юсифли, Р.Камал, Е.Акимова и др. художественное произведение в рамках различных проблем исследуется в научно-теоретическом смысле.

Во второй главе, называемой "Новый этап художественного произведения и литературная критика" в литературной критике исследуются проблемы художественного произведения и проблемы теоретического дискурса темы войны в произведении. Отмечается, что в художественном произведении 1990-х гг. повесть, а после 2000-х гг. жанр романа занимают ведущую роль. Художественная критика этого периода привлекает к исследованию лучших художественных произведений, стремится определить место и позицию в литературном

процессе. Среди произведения искусства, созданные в период независимости, наибольшему обсуждению со стороны литературной критики подверглись произведения, написанные на тему войны в Карабахе.

В первом параграфе "Исторические романы в рамках литературной критики" третьей главы, называемой "Новое мышление художественного произведения и теоретико-литературное мышление", отмечается, что беспрерывное усовершенствование историковедении, на ряду с определением нового статуса современной истории, и формируется диапазон и взгляд на будущее художественного мышления. На этом этапе наше художественное произведение, не чувствуя на своих плечах никакой тяжести влияния (особенно социалистического реализма) создало благоприятные условия для написания новых произведений на пути создания моста между прошлым, настоящим и будущим. Во втором параграфе, которая называется "Азербайджанская постмодернистская художественная проза и литературная критика" объектом исследования является отношение литературно значимого мышления к постмодернистской художественной прозе. С появлением первых примеров постмодернизма литературная критика незамедлительно попыталась разрушить стереотипы традиционного мышления данного понятия, дать оценку его позиции и месте в нашей литературе. Несмотря на то, что в связи с понятием постмодернизма, в том числе с произведениями постмодернизма, до сих пор продолжаются научные, теоретические дискуссии, тем не менее, можно предположить, что такие споры будут и в будущем. Ясно одно, что только не обладающий литературным и культурным событием постмодернизм обеспечил богатство современных методов, расширение возможностей выражения; продолжавшаяся в течение длительного периода традиционная стабильная тишина была нарушена, началась формирования пропорций новых ценностей. Несмотря на то, что в первое время чувствовалась тяжесть в связи с давлением на теоретические мысли, но со временем литературная критика поэтики получила возможность яснее высказать свое мнение.

В "Заключительной" части диссертации были обобщены результаты исследования, получили определенные выводы по развитию и проблематике литературной критики прозы.

**E.H.Rahimova**

## The prose of Azerbaijan in literary-theoretical thought (1990-2010)

### SUMMARY

The thesis consists of an introduction, three chapters, each of which consists of 2 sections, conclusion and bibliography.

The introduction of the urgency of the thesis, the history of research topics, the subject and the object, purpose and objectives, scientific novelty and methodological base, grounded theoretical and practical significance, and approbation of the thesis structure.

In the first chapter, referred to as "literary-theoretical understanding of the problem of creativity in the 90s.", Explores a theoretical problem, the role of critical thinking in the literary process, problems of development trends in the period of the 90s. At this point, the literary-theoretical thought, first of all, freed from the method of socialist realism, also defines the contours of the new evaluation and values. Theoretical thought lets give advantage to examples of artistic works are not from the standpoint of political and ideological orientation, but from the point of view of art and artistic significance. Studies and articles among writers and critics of art of independence, such as B.Nabiyev, Y.Garaev, I. Habibeyli, Sh.Alyshanly, N.Jafarov, R. Aliyev, B.Ahmedov, T.Alishanogly, V.Yusifli , R.Kamal and ext. work of art in the various issues explored in the scientific-theoretical sense.

In the second chapter, called "A new stage of the work of art and literary criticism" in literary criticism devoted to the problems of art and the problems of theoretical discourse the theme of war in the product. It is noted that the 1990s in the work of art. story, and after the 2000s novel genre take a leading role. Art critic of the period attracted to the study of the best works of art. seeks to determine the place and position in the literary process. Among the works of art created in the period of independence, the greatest discussion on the part of literary criticism underwent works written on the subject of the war in Karabakh.

In the first section, "Historical novels as part of literary criticism" of the third chapter, called "New Thinking of art and theoretical-literary thought," it notes that the continual improvement of the historical science, along with the definition of the new status of modern history, and is formed

by the range and look to the future artistic thinking, at this stage, our art, without feeling on your shoulders no gravity influence (especially of socialist realism) created favorable conditions for writing new works towards creating a bridge between the past, present and future. In the second section, called "Azerbaijan postmodern fiction and literary criticism" the object of study is the relation of thought to meaningful literary postmodern prose. With the advent of the earliest examples of postmodern literary criticism immediately tried to break down stereotypes of the traditional thinking of the concept, to evaluate his position and place in our literature. Despite the fact that in connection with the concept of postmodernism, including products postmodernism still ongoing scientific, theoretical discussion, however, we can assume that these spores are in the future. One thing is clear, that not only has the literary and cultural event postmodernism has provided a wealth of modern methods, the expansion possibilities of expression; continued for a long period of stable traditional silence was broken, began the formation of proportions of new values. Despite the fact that for the first time felt the weight due to pressure on the theoretical thought, but eventually the poetics of literary criticism had the opportunity to express their opinions clearly.

In "Final" part of the thesis we summarize the results of the study were received definite conclusions on the development and problems of literary criticism of fiction.

Kağız formatı: 60/84 16/1
Sayı: 100

AMEA-nın mətbəəsində çap olunmuşdur

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ЛИТЕРАТУРЫ им. НИЗАМИ**

*На правах рукописи*

**ЭСМИРА ГАСАН кызы РАГИМОВА**

# АЗЕРБАЙДЖАНСКАЯ ПРОЗА В ЛИТЕРАТУРНО-ТЕОРЕТИЧЕСКОЙ МЫСЛИ (1990-2010 гг)

**5716.01 – Азербайджанская литература**

**А В Т О Р Е Ф Е Р А Т**

**диссертации на соискание научной степени**
**доктора философии по филологии**

**БАКУ –2016**